***Cəlal Əbdülrəhman oğlu Novruzov***
*t.e.ü.f.d., aparıcı elmi işçi*

***Sadıqov Məmməd***
*c.e.n., aparıcı elmi işçi*

# REKREASİYA - TURİZM EHTİYATLARININ İQTİSADİ CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ ƏSASLARI (AZƏRBAYCAN REGİONLARI TİMSALINDA)

**Açar sözlər:** Azərbaycan, turizm, flora, fauna, mineral sular, abidə

**Ключевые слова**: Азербайджан, туризм, флора, фауна, минеральная вода, памятник

**Key wards**: Azerbaijan, tourism, flora, fauna, mineral water, monument

Tuizm həyat üçün birinci dərəcəli tələbat növü olmasa da, insanın inkişafının və onun həyat tərzinin müəyyən sərhədləri və məhdudiyyətləri ətrafında fəaliyyət göstərir. Turizm insan gəlirlərinin müəyyən səviyyəsində formalaşır, onun üçün planlaşma və təminat səviyyəsi bölgü və gəlirlər baxımından ölçülür. Azərbaycanda mühiti iqtisadi inkişafla yanaşı formalaşır və inkişaf edir. Onun maddi və maliyyə bazası, dövlətin himayəsi və idarə edilməsi ilə bağlıdır. Beləliklə, turizmi, iqtisadi sistemin, iqtisadi artımın və onun bölgü sisteminin ayrılmaz tərkib hissəsi kimi qəbul etmək olar. Turizm iqtisadiyyatı ümumi iqtisadi və sosial həyatın tərkib hissəsi olmaqla yanaşı, ümumi daxili məhsul, büdcə gəlirləri və sahibkarlıq fəaliyyətinin formalaşmasında mühüm rol oynayır.

Azərbaycanda turizmin inkişafı planlı təsərrüfat sistemində mərkəzləşdirilmiş resurslar hesabına inkişaf etdirlir və planlaşma obyekti kimi sahə statusuna tabe edilir. Müasir şəraitdə turizm sahəsi bazar modeli əsasında inkişaf edir. Bu sahəsinin özünün iqtisadi cəhətdən səmərəli və kommersiya maraqlarına uyğun idarə olunması zəruriliyi meydana çıxır. Turizm mahiyyətcə istirahət və gəzinti sferasıdır. Turizm sahəsində iqtisadi resurslar maliyyə vəsaitləri, iş qüvvəsi və elmi cəhətdən əsaslandırılmış təşkilatı idarəetmə strukturunu formalaşdırır. Bu istiqamətdə Azərbaycan turizm sənayesinin inkişafı çox zəngin ehtiyatlara malik olmasıdır. Ölkə iki dünya sivilizasiyasının qovşağında, Transqafqaz nəqliyyat dəhlizinin və Böyük İpək yolunun ortasında yerləşir və bütün infrastrukturlar - Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz, magistral avtomobil və dəmir yolları burada cəmləşdirir. Dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək, ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlamaq və yaymaq dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirmək, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar vermək və bu istiqamətdə internet imkanlarından geniş istifadə etmək lazımdır.

İqtisadiyyatın davamlı inkişafı nəticəsində Azərbaycanda turizm sahəsi öz istiqamətini dəyişməyə başladı. Əgər əvvəllər çoxsaylı turizm şirkətləri respublika vətəndaşlarına daha çox xarici ölkələrə səfərlər təqdim edirdisə, hazırda onlar xarici turistlərin respublikanın sanatoriya-kurortlarına cəlb edilməsi ilə diqqəti cəlb edir.

Azərbaycan - Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik olan bir ölkədir.

Bu baxımdan Azərbaycan balneoloji kurort turizm ehtiyatları ilə də zəngindir. Ölkədə 1500-dən çox mineral və termal sular, müalicəvi xüsusiyyət daşıyan 4 palçıq vulkanı və bir müalicəvi neft mənbəyi vardır. Ölkədəki mineral və termal suların yayılma xüsusiyyətinə görə ən çox mineral sular Kiçik Qafqaz və Naxçıvanda, termal sular isə Talış dağlarında, Böyük Qafqaz və Abşeronda yayılıb.

1. Naxçıvandakı mineral su mənbələri 250-dən çox mineral sulardan ibarətdir.

Burada hidrokarbonatlı, xloridli, karbon qazlı sular üstünlük təşkil edir. Ümumi debiti 240 mln litrdir. Naxçıvandakı müalicəvi və süfrə suyu kimi istifadə olunan debiti yüksək olan - Badamlı (1070 m/gün), Tili (2000m/gün), Vayxır (270m/gün), Sədərək (500m/gün) və s. qeyd etmək olar. Ümumiyyətlə buradakı mineral sular 6 tip və 16 yarımtipə ayrılır ki, onların da tərkibinin 18%-dən çoxunu karbon qazlı hidrokarbonatlar təşkil edir. Azərbaycanda olan karbon qazlı suların 35%-i Naxçıvanda cəmlənib. Culfa və Sirab sanatoriyaları, Naxçıvanın Duzdağ yatağında olan balneoloji kurortlar öz keyfiyyətinə görə beynəlxalq əhəmiyyətə malikdir. Babək rayonunun Böyük Duz kəndinin yaxınlığından duz mədənlərinin bazasında 1979-cu ildən fəaliyyət göstərək 60 yerlik fizioterapiya xəstəxanası il ərzində 2000-dən çox xəstəyə xidmət göstərir.

2. Abşeronda olan termal sular yodlu bromlu və hidrogen sulfidli sulardan ibarətdir. Onların sırasına Şıx burnu, Suraxanı, Bilgəh və Qala kəndindəki mineral sular aiddir. Bu suların ümumi debiti 140 min 1 gün təşkil edir. Su mənbələrində temperatur yüksəkdir (+25-35C). Dəri, dayaq hərəkət orqanlarının müalicəsində istifadə olunur. Bu suların bazasında 200 yerlik Şıx sanatoriyası fəaliyyət göstərir.

3. Lənkaran-Astara bölgəsində 100-dən çox termal su mənbəyi aşkar olunub. Buranın termal suların tərkibi sulfidli, hidrogen sulfidli və natrium xloridlidir. Temperatur 40-80C-ə çatır. Tərkibində kükürd çox olduğu üçün müalicəvi xüsusiyyətləri daha yüksəkdir. Bu sular vasitəsilə ürək-damar, dəri xəstəlikləri müalicə olunur. Bölgənin yüksək debitli termal sularına Ərkivan, Ənci, Meşəsu, Biləsər, Qızılca, Qotursu, İstisu, Daşvənd, Qəriblər və s. aiddir. Bu suların bazasında Ləkəranda 400 yerlik müalicə pansionatı, İstisu və Daşvənddə müalicə əhəmiyyətli vannalar fəaliyyət göstərir. Lənkərandakı termal sular Türkiyənin Qara dəniz sahili və Anadolu yaylasında yerləşən termal suları ilə tərkibə malik olmaqla debitin yüksək olası və müalicəvi xüsusiyyətlərinə görə Pakubukqala, Bodrumda olan termal sulardan belə üstündür.

4. Şəki, Zaqatala və Şirvanda 20-dən çox termal sular qeydə alınmışdır. Bunların da ümumi debiti 400000 1/gündən çoxdur. Bu suların tərkibində minerallaşma yüksək olub. Əsasən hidrokarbonatlı, kükürdlü sulardan ibarətdir. Qeyd olunan mineral sulardan müxtəlif uroloji, mədə və öd xəstəliklərinin müalicəsində istifadə oluna bilər. Bölgənin debiti yüksək olan mineral bulaqlarına Cəngi, Çuxuryurd, Basqal, Bədo və s. daxil etmək olar. İlisuda 100 yerlik müalicə pansionatı, Qaxda mineral süfrə suyu istehsalı təşkil olunsa da digər mineral sulardan hələlik az istifadə edilir.

5. Quba-Xaçmazın mineral və termal suları əsasən hidrokarbonatlı və kükürdlü mineral sulardan ibarətdir. Debiti 1 mln 1/ sutkadan çox olmaqla 30-dan çox bulaqdan ibarətdir. Belə mineral sulara Quba rayonunda Xaltan, Çini, Xaşı, Sona bulaqları, Pirbənövşə və s. aiddir. Qeyd olunan mineral sular 1200-1800 m yüksəklikdə yerləşir. Ətrafı ekzotik landşaftla əhatə olunub. Hazırda Xaltan və Xaşıda yerli əhəmiyyətli müalicə vannaları fəaliyyət göstərir. Dəvəçidə 10-dan çox su mənbəyi vardır ki, bunlardan da ən məşhurlarına Qalaaltı, Düzbilici və Zeyvə kükürdlü və karbonatlı suları aiddir.

Qalaaltı termal suyunun debiti 200000 1/gündən çox olmaqla bir-birinə yaxın yerləşən 20-dən çox bulaqdan ibarətdir. Müalicəvi xüsusiyyətlərinə görə Çexiyanın Karlov Varı suyundan üstündür.

6. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın rayonlar ərazisində 100-dən çox mineral su mənbəyi vardır ki, onların da əsas hissəsi Şuşa, Kəlbəcər, Laçında cəmlənib. Burada olan 10-a yaxın təbii mineral bulağın ümumi debiti 400000 1/gün təşkil edir. Müalicəvi əhəmiyyəti yüksəkdir. Burada işğaldan qabaq 200 yerlik sanatoriya fəaliyyət göstərib. Şuşada debiti yüksək olan mineral sulara Turşusu, Şirlan, Nurəddin su mənbələrini aid etmək olar. Kəlbəcərdə bir-birinə yaxın yerləşən 20-dən çox su mənbəyi vardır və onların tərkibi hidrokarbonatlı sulardan ibarətdir. Debiti 1 mln litrdən çoxdur. Buradakı məşhur mineral sulardan İstisu, Bağırsaq və s. qeyd etmək

olar. İstisuda 563 yerlik kurort-sanatoriya kompleksi və ildə 100000 deka litr istehsal gücünə malik olan süfrə suyu istehsal olunurdu. Laçında Minkənd, Qotursu, Əhmədli mineral su mənbələrin də debiti yüksəkdir. Əsasən xloridli sulardan ibarətdir.

7. Gəncə-Qazax bölgəsinin mineral və termal suları Gədəbəy, Göranboy bölgələrində daha çox cəmlənib. Təkcə Gədəbəydə 50-dən çox mineral su mənbəyi vardır. Onların tərkibi hidrokarbonatlı və sulfidli sulardan ibarətdir. Ürək-damar, mədə xəstəliklərinin müalicəsində istifadə edilir. Hesablamalara görə bu suların debiti 600-650 min 1/günündən çoxdur. Ən məşhur mineral sulardan Slavyanka, Qalakənd, Çaldağ, Qızılca, Narzan, Mormor və s. Hazırda bu mineral sulardan balneoloji sanatoriya və kurort məqsədilə istifadə olunmur. Slavyankada mineral süfrə suyu istehsalına başlanıb. Naftalanda XV əsrdən etibarən müalicəvi əhəmiyyətli neft çıxarılır. Bu müalicəvi neftin 4 mənbəyi vardır. Bu neftdən dərman hazırlanması ilə yanaşı əsəb, ginekoloji, uroloji, dəri xəstəliklərinin müalicəsində istifadə olunur. Bunların bazasında 3050 yerlik sanatoriya kompleksi tikilsə də onun 2000-dən çox yerində məcburi köçkünlər məskunlaşıbdır.

Ölkədə balneoloji turizm ehtiyatlarından istifadə olunma səviyyəsi 5%-dən çox deyildir. Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyaların 7591 yerində məcburi köçkünlər məskunlaşıb. Lakin cəmi 2177 yerlik sanatoriya müəssisələri müştərilərə xidmət göstərmək imkanına malikdir. Bunun 1625 yeri müasir standartlara cavab verən çarpayılarla təmir olunaraq istifadəyə verilmişdir. Ölkədə təbiət abidələrinin yayılması, ərazinin coğrafi mövqeyində və təbii şəraitindən asılı olaraq dəyişir. Ən çox təbiət abidələri dağlıq və dağətəyi bölgələrdə yayılıb ki, onların da əksəriyyəti əsas və əlavə turist marşrutlarında istifadə olunur. Bu baxımdan təbiət abidələrini, turizm baxımından istifadəsinə görə 3 qrupa ayırmaq olar:

1. Turizm və istirahətin təşkili üçün əlverişli olan ekzotik landşaft abidələri;

2. Müəyyən turist marşrutlarında istifadə olunan təbiət abidələri;

3. Turizm fəaliyyəti ilə bir başa bağlı olan təbiət abidələri.

Ölkəmizdə təbiət abidələri geoloji, geomorfoloji, hidroloji, flora və faunastik növlərə bölünür. Azərbaycanda geoloji, geomorfoloji abidələr Abşeron, Quba, Qazax, Tovuz, Qobustan, Sədərək inzibati rayonlarında yayılıb.

1. Abşeron geoloji abidələrə palçıq vulkanları, Binəqədidəki Bitium gölü, dəniz sahillərində olan qayalıqlar, Məhəmmədli və Digah kəndlərində qazın alovlandığı ərazilər aid edilir (Yanar dağ və s.). Abşeronda qeyd olunan təbiət abidələrindən yerli turist marşrutlarında istifadə olunur.

2. Naxçıvandakı geomorfoloji abidələrə Nəhəcər, Əlincə, İlanlıdağ, həmçinin Ordubad rayonunda kvars söküntülərindən ibarət və Xızı yolunun 50-60-cı km-də müxtəlif rənglərə boyanmış dağ yamaclarını qeyd etmək olar. Geomorfoloji abidələrdən Naxçıvandakı Sarıdağ, Dəlidağ, Dəhnədağ qədim çöküntü süxurlarının yayılması ekzotik landşaft xüsusiyyətlərinə görə seçilir. Həmçinin Qazax, Tovuz rayonunda, Göyəzən, Avey dağı və s. ekzotik təbiət abidələrindəndir. Xınalıq kəndi və Qızılqaya yaylasında 20-dən çox geoloji abidələr mövcuddur.

3. Hidroloji və faunastik abidələri daha çox Böyük Qafqazda, Naxçıvan və Gəncə-Qazaxda bölgələrində yayılıb. Hidroloji abidələrdən Böyük Qafqazın Şimal-Şərq və cənubunda olan dərin çay dərələrini və şəlalələri qeyd etmək olar ki, bunlardan ən çoxu Şəki, Qəbələ, Zaqatala, Quba və Şamaxı rayonlarında qeydə alınmışdır. Ölkədə mövcud olan şəlalələrin böyük hissəsi Böyük Qafqaz çaylarının payına düşür ki, bunların da çoxu əsas turist marşrutlarına salınıb. Afurca, Mucuq, Həmzli, İlisu, Katex, Sarıgüney və s. kimi hidroloji abidələri turizm əhəmiyyəti daşıyır.

Ölkədə fauna abidələri əsasən dağlıq ərazilərdə - Böyük Qafqaz və Kiçik Qafqazın meşələrində yayılıb. Flora abidələri isə ən çox Lənkəran bölgəsində yayılıb. Burada endemik və relikt bitkilər ölkədə yayılan eyni əhəmiyyətli abidələrin 2/3-dən çoxunu təşkil edir.

Bununla yanaşı Sultanbud meşələri, Göygöldə yayılan qarmaqvari şam, şabalıdyarpaq palıd meşələri də flora abidələrindən sayılır. Ölkədə nadir landşaft abidələrinin ən çox cəmləşdiyi ərazilərə Abşeron, Çuxuryurd, İsmayıllı rayonlarında, Kəpəz dağı, Quba rayonundakı Qaytarqoç silsiləsi, Təngaltı, Qəçrəş, Kiş çayının dərəsi, Şəkidəki Marxal, Zaqatalada Pəri qalası deyilən ərazilər, Göygöl, Naxçıvanda, Batabat, Lerik rayonundakı estetik landşaftın daha çox cəmləşdiyi dağlıq əraziləri qeyd etmək olar. Ölkədə olan təbii təbiət abidələrini əhəmiyyətinə görə 3 qrupa bölmək olar:

1. Dünya əhəmiyyətli abidələr – İlandağ, Göygöl, Göyəzən, Batabat, HIrkan meşəlikləri, Abşeronun palçıq vulkanları;

2. Ölkə əhəmiyyətli abidələr - Şəlalələr, Beşbarmaq dağı, Dübrar dağlarındakı mənzərələr, nadir mineral bulaqlar, Sultanbud meşəsi və s.

3. Yerli əhəmiyyətli abidələr - Müxtəlif meşə landşaftı, yaşı bir neçə yüz ilə çatan Zaqatala şəhərindəki Xan Çinarı və Ucar-Yevlax arasında yaşı min ili ötüb keçən Xan Çinarı və palıdı, çay dərələrini, yanar bulaqları, təbii qazın alovlandığı yanardağı və s. göstərmək olar.

Təbiət abidələri turist marşrutlarında istifadə olunur. Bunlardan ən çox Abşeronun palçıq vulkanları, təbii meşəlik ərazilər, Naxçıvanın təbiət abidələri və s. milli irs nümunələrinin turizmdə istifadə xüsusiyyətləri antropogen ehtiyatlarda olduğu kimi əsasən ekskursiya məqsədli və beynəlxalq turizm inkişaf etdirilməsi üçün əsas vasitələrdən sayılır. Milli irs nümunələrinin ölkədə turizm ehtiyatı kimi istifadə olunması aşağıdakı qruplara bölünür:

1. Beynəlxalq turizmdə istifadə olunan milli irs nümunələri. Buraya beynəlxalq sərgilərdə, tranzit turist marşrutlarında və ölkənin müəyyən bir ərazisində turizm ehtiyatlarının daha çox cəmləşdiyi bölgələrdə milli irs nümunələri daxildir.

2. Bölgələrdə və ya yerli səviyyədə milli irs nümunələrinin təbliği hesabına xalq sənətkarlığının, suvenir istehsalının yaradılmasına yönəldilən tədbirlər. Bu məqsədlə milli sənətkarlıq nümunələrinin daha çox cəmləndiyi yaşayış məntəqələrindən əlavə iqtisadi stimullar yaratmaqla xalq sənətkarlığının inkişafına nail olunması mümkünlüyü.

3. Milli irs nümunələrinin ölkənin turizm reklamında istifadə olunması və bu məqsədlə beynəlxalq səviyyəli yerləşmə müəssisələrində onların satışının təşkil olunması.

Ölkədə milli irs nümunələrinə xalq sənətkarlığının ayrı-ayrı növləri, suvenir istehsalı, kustar üsulla hazırlanan müxtəlif məhsullar, dekorativ sənət nümunələri, ənənəvi toxuculuq işləri və s. aid edilir. Ölkədə qeyd olunan irsi nümunələrdən xalçaçılıq ənənəvi sənət növlərindən olmaqla turizmdə suvenir istehsalı üçün əhəmiyyətli yer tutur. Xalçaçılıq sənətinə aid olan kiçik həcmli xalçalar beynəlxalq sərgilərdə nümayiş olunur və ölkəyə gələn turistlərin ən çox aldığı suvenir məhsullarından sayılır. Ölkədə xalçaçılığın qədim adət-ənənələri Quba, Şamaxı, Bakı, Qarabağ, Qazax və Naxçıvan bölgələrində saxlanılıb. Burada kiçik həcmli xalçalar və ona uyğun gələn müxtəlif məhsullar əl əməyi ilə toxunulduğuna görə ölkəyə gələn turistləri daha çox cəlb edir. Son illər ölkənin əsas turizm mərkəzlərindən sayılan Quba, Şamaxı, İsmayıllı, İçərişəhər və Şəkidə kiçik xalça sexləri fəaliyyət göstərir ki, onların da istehsal etdiyi məhsullara tələbat gün-gündən artıb. Məsələn: xalçaçılıqda toxunan kiçik ölçülü xalçaların rəngləri təbii olduğuna görə ölkəyə gələn turistləri valeh edir. İstehsalı ənənəvi toxuculuq sahələrindən olan ipəkçilik ölkədə e.ə. IV əsrdən inkişaf etməyə başlayıb. İpək toxumanın Azərbaycan üçün fərqli üslublarının olması qədim adətlərə söykənən ipək üzərində naxış vurma sənəti əcnəbi turistləri cəlb edən vasitələrdən sayılır. Ölkədə ənənəvi ipəkçilik sənəti Basqal, İsmayıllı, Şəki, Ordubad, Şamaxıda nəsildən nəslə ötürülür və naxışvurma üçün "möhür" xüsusi sənətkarlıqla hazırlanır. Ölkədə ipək toxunmasının turizmdə suvenir istehsalı üçün əhəmiyyəti daha çox müxtəlif dəsmallar, kiçik ölçüdə olan ipək işləmələrindən, kəlağayılarından ibarətdir. Ölkədə xalq sənətkarlığı nümunələrindən biri də dulusçuluq və keramika

ilə bağlı olan müxtəlif saxsı qab istehsalından ibarətdir. Ölkədə bu sahə neolit və tunc dövründən inkişaf etməyə başlayıb. Hazırda bu sənətkarlıq nümunələri Gəncə, Lənkəran, Masallı, Ərkivan, Qazax, Quba, Abşeronun bəzi kəndlərində öz əhəmiyyətini saxlayıb. Ölkədə saxsı qablar ənənəvi sahə olduğuna görə milli irsi nümunələrinin yayıldığı əksər yaşayış məntəqələrində mövcuddur. Qeyd olunan sənətkarlıq nümunələrini yerli və beynəlxalq turizmdə istifadə etmək daha məqsədyönlüdür. Ölkədə milli irsi nümunələrdən misgərlik sənəti e.ə. II əsrdə ölkədə geniş yayılmağa başlayıb. Misgərlik sənətkarlığının inkişafı XV-XVI əsrdə ən yüksək həddinə çatıb. Xüsusilə Azərbaycanın qədim şəhərlərindən Şəki, Şabran, Qəbələ, Bərdə və Ordubadda daha çox inkişaf etmişdir. Bu dövrdə misgərlik sənətkarlığı digər metal üzərində oyma sənətkarlığı ilə bərabər bütün ölkə ərazisində yayılmağa başlayıb. Hazırda misgərlik sənət nümunələri və digər metal üzərində oyma sənəti Şirvan və Şəki-Zaqatala bölgəsində öz əhəmiyyətini saxlayıb. Misgərliyin yüksək inkişaf etdiyi və qədim adət-ənənələrə söykənən sənətkarlıq sahəsindən beynəlxalq turizm marşrutlarında istifadə olunur. Ölkədə ağac üzərində oyma sənəti də adət-ənənələrə əsaslanır. Xüsusilə Şəki-Zaqatala, Tovuz, Qazax rayonlarında bu sənətkarlıq nümunələri öz əhəmiyyətini saxlayıb. Ölkədə milli bayramlarda etnoqrafik sənət nümunələrinin turizm əhəmiyyəti vardır. Ən mühüm etnoqrafik sənət nümunələri Xınalıq, Lahıc, Basqalda öz əhəmiyyətini saxlayıb. Ölkədə qeyd olunan yaşayış məntəqələri əsas turist marşrutlarına salınıb.

## ƏDƏBİYYAT

1. Vüqar Dərgahov "Rekreasiya-Turizm ehtiyatları" Bakı - 2014
2. Faiq Nadirov, Mahir Qəhrəmanov – Ekoturizm, Bakı - 2008
3. Əlirzayev Ə.Q. - "TUrizm iqtisadiyyatı və idarə edilməsi", Bakı - 2010
4. Hüseynov M.M., Egiazorov A.Q. - "Kurortlarımız", Azərnəşr-1958
5. "Dirçəliş XXI əsr" - 2008-2009 -№ 130-131-s.235-241."Azərbaycan Respublikasının Ekoloji Siyasətində Beynəlxalq Standartlar"
6. А.С.Кускова, В.Л. Голубева, Т.Н. Одтцова "Рекреационная география"
7. "Rekreasyon Yönetimi" Anadolu Universiteti -2013 səh.9
8. Production and Services Catalogue 2015 - ICAO, Databases
9. "World Travel and Tourism Council" 2014 Issue İnternet resursları:
10. URL:http:\\azerbaijans.com\content466az.html
11. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az
12. HTTP^\\www.eco.gov.az/Es - Bakı-Absheron-Veziyyet.php

***Джалал Абдульрахман оглы Новрузов***

## ЭКОНОМИЧЕСКОЕ ОЦЕНИВАНИЕ РЕКРЕАЦИОННО-ТУРИСТИЧЕСКИХ ЗАПАСОВ
### (на примере азербайджанских регионов)

### РЕЗЮМЕ

Статья посвящена экономическому оцениванию туристических запасов в регионах Азербайджанской Республики. Основное внимание направлено на задачи, связанные о правильным использованием природных географических условий страны, климатических показателей, надземных и подземных природных запасов, флоры и фауны с целью развития туризма. Помимо этого, в статье на передний план передвигается важная роль истории Азербайджанской территории, обилии географических и этнографических памятников, условий для создания этнографических музеев под открытым небом в разных регионах, в том числе и гостеприимство и толерантность нашего народа, консервативного подхода на национально-культурные ценности и других факторов на развитие туризма.

***Djalal Abdulrakhman oglu Novruzov***

**ECONOMICAL APPRECIATION OF RECREATION-TOURISM RESOURCES**

**SUMMARY**

The article is devoted to economical appreciation of tourism resources in regions of AzerbaijanRepublic. The main notice tonars to geographical conditions, climate indicators, surface and underground natural resources, correct usage of flora and fauna for progress in tourism. In addition, in this article the main role is given to the abundance of the geographical and ethnographical monuments, conditions for creating ethnographical museums under the open sky, also hospitality of our nation, folerance, conservative approach to the national and cultural falues and etc factors in the development of the tourism.